

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 8 (24.145)

*17 yanvar 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevriləcəkdir

### *Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərində işgüzar səfərdə olub*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gəlib.

Əbu-Dabi Prezident Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin ədliyyə naziri Abdulla bin Avad Əl-Nueymi və digər rəsmi şəxslər qarşıladılar.

* * *



Yanvarın 15-də Əbu-Dabidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.

Dövlətimizin başçısı səfərə dəvətə görə minnətdarlığını bildirdi, BMT Təhlükəsizlik Şurasında Cənubi Qafqaz regionuna aid müzakirələrdə Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycana göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini, bunun dostluğun və qardaşlığın nümunəsi olduğunu dedi.

Prezidentlər Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin sülhsevər dövlətlər olduqlarını qeyd etdilər, regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi işində göstərdikləri səyləri vurğuladılar.

Söhbət zamanı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq həyata keçirdikləri bildirildi, bu əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulandı. Dövlət başçıları tərəfindən müəyyənləşdirilmiş siyasi xəttə uyğun olaraq, iki ölkənin müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi qeyd edildi.

Dövlətimizin başçısı Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəhbərliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin mühüm uğurlara imza atdığını, ciddi texnoloji nailiyyətlər əldə etdiyini dedi, bu münasibətlə təbriklərini çatdırdı.

Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan, öz növbəsində, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlər və qələbələr münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı Azərbaycana səfərə dəvət etdi.

Dəvət minnətdarlıqla qəbul olundu.

* * *

Yanvarın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı açılış mərasimində çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı




– Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Zati-aliləri Şeyx Məhəmməd bin Zayed Al Nəhyan.

Dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Əvvəlcə, bu mühüm toplantıda iştirak etmək üçün məni dəvət etdiyinə görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Bu auditoriya qarşısında çıxış etməkdən böyük şərəf hissi duyuram. Dünən bizim cənab Prezidentlə əla görüşümüz oldu. Bu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin bir çox sahədə strateji əhəmiyyətini bir daha təsdiqlədi. Bu fürsətdən istifadə edərək bizi qəbul edən bütün tərəflərə minnətdarlığımı bildirirəm.

Mən çox böyük nailiyyətlər və sürətli inkişaf münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini və xalqını təbrik etmək istəyirəm. Cənab Prezident, Sizin rəhbərliyinizlə Birləşmiş Ərəb Əmirlikləri dünyanın ən sabit, inkişaf etmiş və uğurlu ölkələrindən birinə çevrilib. Biz – Sizin Azərbaycandakı qardaşlarınız olaraq gördüyünüz işlərdən çox fərəhlənirik.

Biz Azərbaycanda bərpa olunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik. Enerji təhlükəsizliyimizi hələ bir neçə il əvvəl təmin etmişik. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Bərpa olunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq.

Cəmi iki il əvvəl Azərbaycan Cənub Qaz Dəhlizi meqa enerji layihəsini öz tərəfdaşları ilə başa çatdırıb, Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş boru kəmərləri sistemini qurub. Həmin boru kəmərinin uzunluğu 3500 kilometrdir.

Təbii qaz ixracımız artır – ötən il 19 milyard kubmetr idisə, bu il 24 milyard kubmetrə çatacaq. O, artmaqda davam edəcək. Buna görə mən bir daha söyləmək istərdim ki, Azərbaycanın bərpa olunan enerji mərkəzlərindən birinə çevrilməsi planlarımız Azərbaycanın öz enerji təhlükəsizliyi ilə bağlı deyil, belə ki, biz həmin işləri artıq söylədiyim başqa səbəblərə görə aparırıq.

Potensialımıza gəldikdə bəzi rəqəmləri diqqətinizə çatdırım. Quruda 27 qiqavatlıq külək və günəş enerjisi, 2020-ci ildə Vətən müharibəsi zamanı azad edilmiş ərazilərdə 10 qiqavatlıq külək və günəş enerjisi, həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Yəni 200 qiqavata yaxın potensial var. Əlbəttə ki, bizə kifayət qədər ixrac marşrutları lazımdır. Təbii ki, biz bütün bu layihələri mərhələli şəkildə icra edirik.



Dünən "Masdar" və Azərbaycan Dövlət Neft Şirkəti 4 qiqavatlıq külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair razılaşma imzaladılar. Bu hələ qısamüddətli bir layihədir. Ortamüddətli layihələr nəticəsində güclər 10 qiqavata qədər artırılacaq. Bu, tamamilə icra olunandır, bununla bağlı yol xəritəmiz var. Yalnız həmin layihə nəticəsində "Masdar" ilə apardığımız əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcəkdir.

Bütövlükdə, Azərbaycanın beynəlxalq enerji şirkətləri ilə imzaladığı anlaşma memorandumları və sazişlər bizə 22 qiqavata qədər külək və günəş enerjisini istehsal etmək imkanını yaradacaq.

Əlbəttə ki, bu məqsəd üçün artıq qeyd etdiyim kimi, bizə ixrac marşrutları lazımdır. Elə ötən ay – dekabrın 17-də Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinə qədər "Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsinə dair" Saziş imzaladılar. Bu Saziş Avropa Komissiyası Prezidentinin şahidliyi ilə imzalanmışdır. Planımız Azərbaycandan 4 qiqavatlıq yaşıl enerjini nəql etmək imkanını yaradacaq kabeli çəkməkdir. Lakin bu, kifayət etməyə bilər. Burada söhbət artıq razılaşdırılmış həcmlər barədə gedir. Lakin planlarımız daha genişdir.

Azərbaycanda investisiya mühiti çox müsbətdir. Biz neft və qaz sektoruna böyük sərmayələr cəlb etmişik. İndi isə hədəfimiz bərpa olunan enerjidir. Digər sözlə, planlarımız böyükdür və əminəm ki, işlərin öhdəsindən gələcəyik.

Çox sağ olun.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri yanvarın 16-da başa çatıb.

Əbu-Dabi Prezident Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi rəsmi şəxslər yola saldılar.

AZƏRTAC

# Azərbaycan mərkəzi hökumətin siyasi muxtariyyətdə təmsilçilik prosesinin tətbiqində dünya təcrübəsinə əsaslanır



*BMT üzvü olan 193 dövlətin böyük əksəriyyəti, yəni 85 faizə yaxını unitar dövlətlərdir. Bu dövlətlərin 20-yə yaxınında, bütövlükdə, 40-dan artıq bu və ya digər dərəcədə özünüidarəetmə səlahiyyətlərinə malik siyasi muxtariyyət mövcuddur. Bu ölkələrin coğrafiyası Amerika, Avropa, Asiya, Afrika qitələrini və Okeaniyanı əhatə edir. Panama, Nikaraqua, Böyük Britaniya, Portuqaliya, İspaniya, İtaliya, Fransa, Danimarka, Finlandiya, Serbiya, Gürcüstan, Azərbaycan, Çin, Filippin, İndoneziya, Papua Yeni Qvineya, Tanzaniya tərkibində ən azı bir siyasi muxtariyyətin olduğu unitar quruluşa malik dövlətlərdir.*

Azərbaycan Respublikasının tərkibindəki Naxçıvan Muxtar Respublikası 1924-cü il fevralın 9-da 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələrinə əsasən yaradılıb. Dünya təcrübəsindəki siyasi muxtariyyətlərin demək olar ki, hamısından fərqli olaraq Naxçıvan muxtariyyətinin yaradılması bilavasitə və müstəsna olaraq yalnız bir – işğal amili ilə bağlı olub. 1918-1920-ci illərdə Azərbaycanın Zəngəzur bölgəsində ermənilərin həyata keçirdiyi soyqırımı və deportasiya, nəticədə, mahalın işğalı Naxçıvan ərazisinin coğrafi baxımdan ölkənin əsas hissəsindən ayrı düşməsi ilə nəticələndi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlət başçısı kimi imzaladığı Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında 1999-cu il 4 fevral tarixli Fərmanında bu barədə deyilirdi: ***"İlk olaraq Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının – Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyəti məsələsini zəruri etdi".***

Beləliklə, tarixən hər zaman Azərbaycana məxsus, Azərbaycan türklərinin yaşadığı ərazi olmuş Naxçıvan bölgəsinin ölkənin tərkibində muxtariyyət statusu qazanması yalnız hərbi-siyasi və tarixi-coğrafi amillərlə bağlı olub, etnik-milli amilin tamamilə istisna edilməsi ilə şərtlənir.

Naxçıvan muxtariyyətinin beynəlxalq təcrübədə mövcud olan muxtariyyətlərlə müqayisəsi bir sıra paralellərin aparılmasını zəruri edir. Bu müqayisəni şərtləndirən aktual məsələlərdən biri də unitar dövlətlərdə mərkəzi hökumətin (muxtariyyətin tərkibində olduğu dövlətin) siyasi muxtariyyətdə təmsilçilik təcrübəsidir. Belə ki, 2022-ci il dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında" Fərman imzalayıb. Fərmanla "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə" təsdiq edilib, beləliklə, özünün mövcudluğu tarixində ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında Azərbaycan dövlətinin muxtariyyətdə rəsmi təmsilçisi institutu təsis olunubdur.

Dünya təcrübəsində bir sıra ölkələrdə dövlətin tərkibində olan muxtariyyətdə təmsilçisi institutu uzun illərdir ki, mövcuddur.

Belə ki, unitar respublika quruluşuna malik Fransanın tərkibində olan siyasi muxtariyyətdə – Yeni Kaledoniyada Fransa prezidenti tərəfindən təyin edilən Respublikanın Ali Komissarı fəaliyyət göstərir. Ali Komissar regionda dövlətin səlahiyyətlərinin və mənafeyinin qoruyucusudur və Yeni Kaledoniyada Fransa Hökumətini təmsil edir. Fransanın 13 dənizarxası ərazisindən biri olan Yeni Kaledoniya Sakit okeanda Avstraliyadan 1500 kilometr şərqdə, Yeni Zelandiyadan 1800 kilometr şimalda yerləşən adalar qrupudur. Ərazisi 18575 kvadratkilometr olan muxtariyyətin əhalisi 270 min nəfərdən çoxdur. Əhalinin 41 faizdən çoxunu avtoxton kanaklar, 24 faizini Avropa mənşəlilər, 11 faizdən çoxunu qarışıq millətlərdən olanlar, 8 faizini uollis və futunalılar (Fransaya məxsus digər adalar qrupu) və digərləri təşkil edir.

Digər Qərbi Avropa ölkəsi, unitar konstitusiyalı monarxiya olan – Danimarkada da Ali Komissar dövlətin Farer adalarında əsas təmsilçisi olub, ölkənin Farerdəki administrasiyasına başçılıq edir. Ali Komissar Laqtinqdə (muxtariyyətin qanunverici məclisi) dövlətin ümumi işlərinə dair bütün müzakirələrdə səsvermə hüququ olmadan iştirak edir. Ali Komissar Laqtinq və Landsstayrın (muxtariyyətin hökuməti) qəbul etdiyi qərarlar haqqında dərhal məlumatlandırılır, qanunların və Daxili Hökumətin digər normativ aktlarının surətləri ona göndərilir. Atlantik okeanın şimal hissəsində yerləşən Farer arxipelaqı 18 adadan ibarətdir ki, onların da 17-si məskunlaşıbdır. Ümumi ərazisi 1399 kvadratkilometr olan arxipelaqın əhalisinin sayı 50 min nəfərə yaxındır. Arxipelaq Danimarkaya 1117 kilometr uzaqda yerləşir. Əhalinin 92 faizi farerlilər, 5 faizi danimarkalılar, qalanı isə əsasən, islandiyalılar, ingilislər, filippinlilər, norveçlilər və başqalarıdır.

Unitar respublika olan İtaliyanın 20 əyalətindən 5-i milli (ərazi) muxtariyyəti statusuna malikdir. Onlardan ən məşhuru Trentino-Alto Adice Muxtar Regionunun tərkibindəki iki əyalətdən biri olan Cənubi Tiroldur. İtaliya mərkəzi hökumətini ofisi Cənubi Tirol Muxtar Əyalətinin inzibati mərkəzi olan Bolzano şəhərində yerləşən Hökumət komissarı təmsil edir. Əyalətin hakimiyyət orqanları – Landtaq (əyalət parlamenti), Əyalət Hökuməti və Əyalət Prezidentidir. Ərazisi 7400 kvadratkilometr olan Cənubi Tirolun əhalisi 530 min nəfərdən çoxdur. Cənubi Tirol İtaliyanın şimalında yerləşib, şimalda və şərqdə Avstriya, qərbdə İsveçrə ilə həmsərhəddir. Əyalət əhalisinin 69,4 faizini almanlar, 26,1 faizini italyanlar, 4,5 faizini isə ladinlər təşkil edir.

Unitar respublika olan Finlandiyanın tərkibində Aland adaları siyasi muxtariyyəti vardır. Finlandiya Hökumətini Aland muxtariyyətində Qubernator təmsil edir. Finlandiya, Aland da daxil olmaqla inzibati cəhətdən 19 regiona bölünür və regionların hər birinə birbaşa qubernator təyin edilir. Yalnız xüsusi statuslu region kimi Aland Qubernatorunu Prezident Laqtinqin sədri ilə razılaşdıraraq təyin edir. 6554 adadan ibarət olan arxipelaq Baltik dənizindən Botnik körfəzinə girişdə, Finlandiya ilə İsveç arasında yerləşir. Dünyanın ən böyük adalar yığımı olan arxipelaqın cəmi 50 adası məskunlaşıbdır. Aland adalarının ümumi sahəsi 6784 kvadratkilometr, torpaq sahəsi 1552 kvadratkilometr, əhalisi 30 min nəfər civarındadır. Muxtariyyət əhalisinin 95 faizi isveçlilərdir.

Unitar respublika olan İndoneziyanın tərkibindəki Açe Xüsusi Əyalətində mərkəzi hakimiyyəti Qubernator təmsil edir. O, mərkəzi hökumətin təmsilçisi vəzifəsini həyata keçirməklə yanaşı, muxtariyyətin qanunvericilik orqanı qarşısında (əyalətin əhalisi tərəfindən seçildiyi üçün) cavabdehlik daşıyır. Ölkə Hökuməti Açe Hökuməti və dairə/şəhər hökumətlərinin fəaliyyətinə nəzarət hüququna malikdir; o, bunun üçün norma, standart və prosedurları müəyyənləşdirir. Muxtariyyətin ərazisi 58377 kvadratkilometr, əhalisi isə 5 milyon nəfərdən çoxdur. Açedə əyalətin əsas əhalisi olan açelilərlə (70,6 faiz) yanaşı, yavalılar (9 faiz), qayolar (7,2 faiz), bataklar (3,3 faiz), alaslar (2,1 faiz), simeuluelər (1,5 faiz) və digər xalqlar yaşayır. Əhalinin böyük çoxluğu (98 faizdən çox) İslam dininə sitayiş edir.

Unitar respublika quruluşuna malik Mərkəzi Amerika ölkəsi olan Panama inzibati-ərazi bölgüsünə görə 10 əyalət, 77 dairə, 5 muxtar ərazidən (komarka) ibarətdir. Əyalət statusunda olan komarkalar qubernatorlar tərəfindən idarə olunan Quna Yala, Kuna-de-Madunqandi, Kuna-de-Varqandi, Embera və Nqobe-Buqledir. Bunlardan ilk üçündə köklü hindu xalqı olan qunalar yaşayır. Kuna de-Madunqandi, Nqobe-Buqle və Kuna de-Varqandi komarkalarında muxtariyyət hüququ xeyli məhduddur. Mərkəzi hakimiyyətin muxtariyyətlərdə təmsilçilik institutu eyni olduğundan, daha geniş muxtariyyət səlahiyyətlərinə malik olan Quna Yala əyalətinin nümunəsinə baxmaq kifayət edir. Quna Yala komarkasında Panamanın mərkəzi hökumətinin təmsilçisi vəzifəsini 1953-cü ildən mərkəzi hökumətin qeyri-köklü əhali arasından təyin etdiyi Qubernator təmsil edir. Panamanın şimal hissəsində yerləşən Quna Yala regionunun ərazisi 2358 kvadratkilometr, əhalisi 33 min nəfərdən çoxdur (köklü xalq olan qunaların ölkədəki ümumi sayı 80 min nəfərdən artıqdır). Komarka ərazisinin 87 faizi meşə örtüyündən ibarətdir.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında" Fərmanı ilə təsis edilən Naxçıvan muxtariyyətində səlahiyyətli nümayəndəlik institutu beynəlxalq təcrübəyə tam uyğun şəkildə təşkil olunmuş yeni idarəçilik institutudur. Müvafiq Fərmanla təsdiq edilən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə"də səlahiyyətli nümayəndəliyin fəaliyyətinin bütün istiqamətləri, hüquq və vəzifələri icra hakimiyyəti çərçivəsində nəzərdə tutulubdur. Belə ki, səlahiyyətli nümayəndəlik muxtar respublikada fəaliyyət göstərən yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirir və onların fəaliyyətinə nəzarəti həyata keçirir, muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə yerli icra hakimiyyəti orqanlarının digər dövlət orqanları (qurumları) ilə qarşılıqlı fəaliyyətini təmin edir, eyni zamanda bölgənin ictimai, sosial və iqtisadi vəziyyətlə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə mütəmadi hesabatlar təqdim edir, Azərbaycan Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərir.

Səlahiyyətli nümayəndəliyin vəzifələrinə yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirmək; yerli icra hakimiyyəti orqanları arasında, habelə yerli icra hakimiyyəti orqanları ilə digər dövlət orqanları (qurumları) arasında əlaqələndirməni təmin etmək, müvafiq ərazidə əhalinin rifahının yaxşılaşdırılması üçün Dövlət proqramları layihələrinin hazırlanmasında və təsdiq edilmiş proqramların icrasına nəzarətdə iştirak etmək; aidiyyəti dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının təklifləri əsasında müvafiq ərazinin sosial-iqtisadi inkişafına dair təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək; Azərbaycan Respublikası Prezidentinin aktlarının və tapşırıqlarının müvafiq ərazidə dövlət orqanları (qurumları) tərəfindən yerinə yetirilməsi vəziyyətini qiymətləndirmək və bununla bağlı Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək kimi məsələlər daxildir.

Bununla yanaşı, səlahiyyətli nümayəndəliyin yerli icra hakimiyyəti orqanları tərəfindən müvafiq ərazinin inkişaf meyillərinin müəyyənləşdirilməsi və proqnozlaşdırılması, sosial əhəmiyyətli sifarişlərin öyrənilməsi işinin təşkilinə nəzarət etmək; yerli icra hakimiyyəti orqanlarının kadr potensialının artırılması ilə əlaqədar təkliflər vermək və sair daxildir.

Bu vəzifələrin icrası üçün səlahiyyətli nümayəndəliyin yerli icra hakimiyyəti başçılarına tapşırıqlar vermək; yerli icra hakimiyyəti başçısının müavininin (müavinlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi üçün, həmçinin yerli icra hakimiyyəti başçıları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinə təqdimat vermək; yerli icra hakimiyyəti başçılarının fəaliyyətləri haqqında hesabat vermələri üçün müddətləri müəyyənləşdirmək; normativ-hüquqi aktların layihələrinə dair təkliflər vermək; təhlillər aparmaq, təkliflər, tövsiyələr, rəylər, arayışlar, analitik və digər yönümlü materiallar hazırlamaq, onları aidiyyəti üzrə təqdim etmək; səlahiyyətlərinə aid olan məsələlərlə bağlı dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə yazılı və ya şifahi sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq; müxtəlif görüşlər, iclaslar, müşavirələr və digər tədbirlər keçirmək və bu kimi hüquqları vardır.

Bütün bunlar sübut edir ki, bu institutun tətbiqi, eyni zamanda Azərbaycan Respublikası Konstitusiyasının 99-cu maddəsinin ("İcra hakimiyyətinin mənsubiyyəti") Naxçıvan Muxtar Respublikasında mərkəzi hakimiyyətin bilavasitə Azərbaycan Respublikası Prezidentinin nəzarəti altında daha effektiv icrasının təmin edilməsinə yönəlibdir ki, bu da tamamilə qanuna və unitar dövlət anlayışına uyğundur. Xatırladaq ki, həmin maddənin məzmunu aşağıdakı kimidir: "Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur". Bu baxımdan, bütövlükdə, ölkədə və onun ərazisinin ayrıca götürülmüş hər hansı bir hissəsində, o cümlədən Naxçıvan Muxtar Respublikasında icra hakimiyyətinin həyata keçirilməsi ilə bağlı məsələlər Azərbaycan Respublikası Prezidentinin müstəsna konstitusion səlahiyyətidir.

**Elman CƏFƏRLİ**
***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, dosent***

# Tələbə-Gənclər təşkilatlarının I regional konfransı keçirilib



Naxçıvan Dövlət Universitetinin ev sahibliyi ilə keçirilən konfransdan əvvəl qonaqlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət edərək abidə önünə gül dəstələri qoyub, Ulu Öndərə ehtiramlarını bildiriblər, Heydər Əliyev Muzeyində olublar.

Sonra Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Azərbaycan Tələbə Təşkilatları İttifaqının sədri Pərviz Mirələmli, ittifaqın baş katibi Orduxan Qəhrəmanzadə, Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti ərazi partiya təşkilatı və Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatı sədrlərinin iştirakı ilə görüş keçirilib. Görüşdə tələbə təşkilatlarının fəaliyyəti, qarşıya qoyulan məqsədlər, həyata keçirilən layihələrdə tələbələrin rolu və könüllülük proqramları müzakirə edilib.

Ali təhsil ocağının Magistratura mərkəzində muxtar respublikadakı tələbə-gənclər təşkilatlarının uğur və fəaliyyətini əks etdirən sərgiyə baxış olub.

Konfransda əvvəlcə Azərbaycanın bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Rektor, dosent Elbrus İsayev konfransı giriş sözü ilə açaraq Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətindən danışıb, universitetin Tələbə-Gənclər Təşkilatının il ərzindəki qənaətbəxş fəaliyyətindən bəhs edib, konfransın işinə uğurlar arzulayıb.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev vurğulayıb ki, dövlətimizin başçısı ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir. Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Gənclər Fondu gənclər və gənclər təşkilatlarının 5 minə yaxın layihəsinin maliyyələşdirilməsi istiqamətində silsilə proqramlar həyata keçirir.

Gənclərin hərtərəfli inkişafı və cəmiyyətdəki rolundan söz açan Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı gənc istedadlara dövlət qayğısından danışıb. Bildirib ki, elm, təhsil, iqtisadiyyat, idman, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətləri yüksək qiymətləndirilir.

Azərbaycan Tələbə Təşkilatları İttifaqının sədri Pərviz Mirələmli, Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının sədri Əziz Qasımov tələbə-gənclər təşkilatları arasında əlaqələrin daha da genişlənəcəyinə, fəaliyyət dairələrinin artacağına əminliyini bildiriblər.

Bədii hissədən sonra konfrans bölmə iclasları ilə işinə davam edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Babək rayonunda vətəndaşların müraciətləri dinlənilib



*Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev ardıcıl olaraq üç gün ərzində Babək rayon mərkəzində və rayonun Nehrəm qəsəbəsində sakinlərlə görüşüb, onların müraciətləri dinlənilib.*

Görüşdə, ümumilikdə, 113 sakinin müraciətinə baxılıb. Yerində həll edilməsi mümkün olan müraciətlər təmin edilib. Belə ki, 5 nəfərin işlə təmin edilməsi, 9 nəfərin isə özünüməşğulluq proqramına cəlb olunması ilə bağlı müvafiq işlərə başlanılıb. Bununla yanaşı, 3 nəfər əlilliyi olan şəxsə birdəfəlik maddi yardım verilməsi, 5 nəfərə isə ünvanlı dövlət sosial yardımı təyin edilməsi məqsədilə müvafiq sənədlərin Əhalinin Sosial Müdafiəsi Mərkəzinə təqdim etmələri izah olunub. Ümumilikdə, 24 nəfərin müraciəti yerində təmin edilib. Digər müraciətlərin isə qanunamüvafiq araşdırılmasına dair aidiyyəti üzrə tapşırıqlar verilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Ev təsərrüfatları uçotunun aparılması istiqamətində işlər operativ həyata keçirilir



*Yanvar ayının 6-da Naxçıvan Muxtar Respublikasında ev təsərrüfatları uçotunun aparılması işinin təşkili ilə bağlı müşavirə keçirilib. Müşavirədə təsərrüfatbaşına uçot kitablarının doldurulması işinin təşkili ilə bağlı şəhər, rayon icra hakimiyyətləri qarşısında duran vəzifələr izah olunub, məsul şəxslər təlimatlandırılıb.*

Qeyd edilib ki, sözügedən istiqamətdə bəzi zəruri tədbirlərin, müəyyən addımların atılması və layihənin sistemli şəkildə həyata keçirilməsi üçün əlavə tədbirlər görülməlidir. Xüsusilə muxtar respublikada statistika üzrə real göstəricilərin informasiya sistemində öz əksini tapması ilə bağlı tapşırıqlar, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının nümayəndələri tərəfindən bununla bağlı əyani izah və tövsiyələr verilib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının müəyyən etdiyi istiqamətə uyğun olaraq 28 dekabr 2022-ci il tarixdə Naxçıvanda bununla bağlı müvafiq müşavirə də keçirilib, Mərkəzi Qərargah yaradılıb, Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planına uyğun olaraq yerlərdə icra hakimiyyətləri başçılarının rəhbərliyi ilə 8 yerli qərargah yaradılıb.

Yanvarın 10-dan başlayaraq qərargahlar təsərrüfatbaşına uçot işinin təşkili üzrə məlumatların dəqiqləşdirilməsinə və informasiya sisteminə işlənməsinə başlayıb. Hazırda muxtar respublikanın şəhər və rayonlarında bu istiqamətdə işlər həyata keçirilir.

Qeyd edək ki, proqram təminatı yerlərdə məlumatlar daxil ediləndən dərhal sonra hər bir yaşayış məntəqəsi üzrə məlumatların ölkənin digər şəhər və rayonları üzrə avtomatik rejimdə müqayisə olunmasına, təkrarçılıq halları varsa, onların aradan qaldırılmasına imkan verəcək.

**Xəbərlər şöbəsi**

*Gəlin açıq danışaq*

# Biri varmış, biri yoxmuş...

## İnci şəhər və ya viran qoyulmuş yurd yeri

*Ordubad şəhəri Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Bu yurd yerinə VII əsrin yazılı mənbələrində rast gəlinir. XIX əsrin məşhur səyyahlarından Hacı Zeynalabdin Şirvani "Bustanüs-səyahət" kitabında yazır: "Ordubad ürəkaçan, gözəl bir şəhərdir. Ora adama fərəh verən yerdir. Onun möhkəm qalası, bol suyu və çoxlu bağları vardır. Meyvəsi bol və dadlıdır. Havası insana sağlamlıq verir. İnsanlarının siması gözəldir".*

Bundan başqa, rus alimi İ. Şopen, polyak tədqiqatçısı A.Petzoldı, fransız yazıçısı A.Düma, Azərbaycan tarixçisi İsgəndər Münşi, XVII əsrdə yaşamış Məhəmməd Mustafa və başqaları Ordubadın qədim abidələrindən, çeşmə-bulaqlarından, ləziz meyvələrindən və qonaqpərvər insanlarından söhbət açıblar.

Bizcə, Ordubada ən gözəl dəyəri Ulu Öndər Heydər Əliyev verərək bu gözəl yurd yerini "Azərbaycanın incisi" adlandırmışdır. Hətta orta əsr memarlıq quruluşunu qoruyub saxladığına görə 1977-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Ordubad Qoruq şəhər elan edilmişdir. Şəhərdəki qədim Sərşəhər, Anbaras, Üçtürləngə, Kürdətal, Qaraçanaq, Qarahovuzbaşı, Əngəc, Meyrəmçə, Peci və digər məhəllələr öz tarixi qədimliyini bu günədək qoruyub saxlaya bilmişlər. Ötən əsrin 90-cı illərinə qədər memar Zakir Babayevin rəhbərliyi ilə Tarixi Abidələri Bərpa İdarəsi tərəfindən şəhərdəki "Anbaras", "Cümə", "Sərşəhər" məscidlərində, "Qeysəriyyə", "Buzxana" binalarında həmin unvanların milli-memarlıq xüsusiyyətləri saxlanılmaqla təmir-bərpa işləri aparılmışdır. Bundan başqa, tarixi romanlar müəllifi Məmməd Səid Ordubadinin və görkəmli akademik Yusif Məmmədəliyevin şəhərdəki ev-muzeyləri və Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi ötən əsrdə Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə yaradılan mədəniyyət ocaqlarındandır.



İllər gəldi, dövran dəyişdi və biz ötən əsrin 90-cı illərində müstəqilliyə qovuşduq. Qazandığımız müstəqilliyin bəhrələrindən ən çox yararlanan yaşayış məntəqələrindən biri də Ordubad oldu. Xüsusən ölkə Prezidenti, Ulu Öndər Heydər Əliyevin yolunun layiqli davamçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində rayonumuzun bütün yaşayış məntəqələrində müasir məktəb binaları, kənd və xidmət mərkəzləri inşa edildi, rahat avtomobil yolları salındı. Bu gün Azərbaycanın bir sıra regionlarında qazlaşdırma 50 faiz həyata keçirildiyi halda, rayonumuzun bütün yaşayış məntəqələri fasiləsiz surətdə mavi yanacaqla təmin olunub, elektrik enerjisi ilə təchizatda da heç bir problem yaşanmır. Bütün bunlar necə də ürəkaçandır...

İndi isə gəlin möhtərəm Prezidentimizin etimadından sui-istifadə nəticəsində Ordubad şəhərinin başına açılmış oyunlardan bir neçəsi ilə tanış olaq. 1972-ci ildə tarixi romanlar müəllifi Məmməd Səid Ordubadinin anadan olmasının 100 illiyi ilə əlaqədar onun Ordubad şəhərinin Mingis məhəlləsindəki böyüyüb boya-başa çatdığı ev muzeyə çevrildi. Ulu Öndər Heydər Əliyev şəxsən bu muzeydə olaraq onun daha da zənginləşdirilməsi üçün göstəriş verdi. Lakin 2009-cu ildə həmin muzeyin yerləşdiyi bina əsaslı təmir adı ilə tamamilə sökülərək mövcud olan bütün maddi mədəniyyət nümunələri yox edildi. Yerində isə gözətçi məntəqəsinə oxşar bina tikib adını da muzey qoydular. Hələ bu harasıdır? Həmin muzeyin bir neçə addımlığında yerləşən XIX əsr abidəsi olan hamam binası da yenə əsaslı təmir adı ilə sökülüb-dağıdıldı, bərpa olunarkən isə hamamdan əsər-əlamət qalmadı.

Mingis məhəlləsində yerləşən daha bir mədəniyyət abidəsi görkəmli maarifpərvər ziyalı, pedaqoq, publisist Məhəmməd Tağı Sidqinin ev-muzeyidir. Muzey qədim məscid binası sökülərək onun yerində inşa olunmuşdur. Əslində isə Məhəmməd Tağı Sidqinin yaşadığı ev "Təbriz" küçəsi 27 nömrəli ünvanda yerləşirdi. Həmin tarixi məkanı yerləyeksan etdikdən sonra Məhəmməd Tağı Sidqiyə "ehtiram əlaməti olaraq" indiki muzey binası inşa edilib. Eyniadlı layihə ilə inşa olunan bu binanın muxtar respublikada bir sıra oxşarları mövcuddur.



Ordubad şəhərindəki ən əzəmətli tarixi-memarlıq abidələrindən biri də qədim "Cümə" məscididir. İki ildən artıqdır ki, bu ünvanda təmir-bərpa işləri aparılır. Təmir-bərpa zamanı məscid binasının daxilindəki bütün tarixi cizgilər qaşınaraq yox edilmişdir. Binanın şəbəkəli pəncərələri sökülərək yerində dörd yüz il bundan əvvəllə əlaqəsi olmayan dəmir pəncərələr salınmışdır. Təmir-bərpa zamanı binanın həndəvərindəki qədim tut ağacları və ərik tingləri sökülərək yox edilmişdir. "Cümə" məscidinin cənuba baxan hissəsində şəhər sakinlərinin istirahəti üçün bir neçə səkidən ibarət meydançalar düzəldilmişdir. Həmin meydançalarda şam ağaclarının əkilməsi və işıqlandırma həyata keçiriləcəkdir. Tikinti zamanı inşaatçılar nədənsə bir məsələni unudublar. Belə ki, güclü qar və yağış yağarsa, əmələ gətirdiyi suların axıb-getməsi üçün çıxış qoyulmayıb. Yəqin ki, bu səkilər tam hazır olduqdan sonra buraya xüsusi qayıqlar gətirmək lazım gələcəkdir. "Cümə" məscidinin yaxınlığında XVII əsr abidəsi olan Qeysəriyyə binası yerləşir. 2010-cu ildə qədim tarixi-memarlıq abidəsi də əsaslı təmir-bərpa olunarkən bu ünvanda da bütün tarixi cizgilər yox edilmiş, binanın fasadına isə hamam kaşılarından ibarət mozaika yapışdırılmışdır.





Ordubad şəhərinin ən qədim abidələrindən biri də yaşı yüz illərlə ölçülən Mədrəsə binasıdır. Ötən əsrin əvvəllərinədək bu binada ali dini təhsil tədris olunmuşdur. Bir neçə il bundan əvvəl Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsi rabitə evinin inşası ilə əlaqədar bu qədim binanı da sökməyə cəsarət etmişdi. Əhalinin sərt reaksiyası ilə üzləşən idarə məcbur qalaraq söküntü işlərini yarımçıq saxlamışdır. Hazırda iki tağı dağıdılmış vəziyyətdə olan bu qədim tarixi abidə bir qrup "insanın" mədəniyyətimizə vurduğu zərbələri özündə əks etdirir. Rabitə evindən söhbət düşmüşkən, həmin binanın yerində vaxilə Ordubad ipək fabrikinin işçiləri üçün inşa olunmuş ikimərtəbəli gözəl bina yerləşirdi. Nədənsə, bu bina Naxçıvanda oturanların xoşuna gəlməmiş, həmin bina yerləyeksan edilərək yüz minə yaxın mişar daşı, panellər və qapı-pəncərələr sökülüb aparılmışdır. Halbuki həmin binanı saxlamaq da olardı. Çünki ötən əsrin 80-cı illərində rabitə evi üçün Ordubad şəhərinin Tədbirlər meydanı ilə üzbəüz ərazi ayrılmışdı. Bu binanı orda da inşa etmək olardı. Sökülən uşaq bağçası binasını isə mehmanxana və ya başqa məqsədlər üçün istifadə etmək mümkün idi. Axı həmin bina qəza vəziyyətində deyildi. Ordubadda isə hələ də mehmanxana yoxdur...

Möhtərəm Prezidentimiz şəhid və qazi ailələrinə xüsusi diqqət və qayğı göstərir. Belə qəhrəmanlardan biri də 20 Yanvar şəhidi Rahim Vaqif oğlu Babayevdir. Ötən əsrin 90-cı illərində bu qəhrəman Vətən övladının xatirəsinə hörmət əlaməti olaraq Ordubad şəhərindəki 2 nömrəli orta məktəb onun adını daşıyırdı. Məktəb binası 1957-ci ildə inşa olunsa da, öz monolitliyi, təhsil üçün bütün imkan və şəraitə malik olması ilə diqqət çəkirdi. Lakin 2000-ci ilin əvvəllərində qəfil göstərişlə bu məktəbin fəaliyyətinə xitam verildi. Təhsil ocağı 18 il istifadəsiz qaldıqdan sonra ötən il Culfa Yol Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən sökülərək materialları daşınıb aparıldı. İndi Ordubad şəhərinin Məmməd Tağı Sidqi, Fərhad Zeynalov, İbrahim Əbilov, Anbaras, Usta Haşım, Nəriman Nərimanov, Qafar Babayev, Dədə Qorqud, Sərşəhər, Üçtürləngə məhəllələrində yaşayan sakinlərin övladları məcburiyyətdən 3 kilometr yol qət edərək ya 1 nömrəli, ya da 3 nömrəli tam orta məktəblərə getməli olurlar. Payızqış aylarında həmin uşaqların necə əziyyət çəkdiklərinin şəxsən şahidi olmuşam. Halbuki Məhəmməd Tağı Sidqi küçəsindəki 2 nömrəli məktəb binasını yüngülvari təmir etməklə uşaqları əzab-əziyyətdən qurtarmaq olardı. Bu məktəbin yaxınlığında yerləşən Azərbaycan Milli Elmlər Akademiyasının Radio Fizika Cihazqayırma üzrə xüsusi texnoloji binası uzun illər səmərəli fəaliyyət göstərib və kosmik sənaye üçün burada mühüm hissələr yığılıb. Həmin bina qədim tikilidə yerləşirdi. Bu ünvan da pis niyyətli insanların güdazına gəlmiş və o da sökülərək yerləyeksan edilmişdir. Söküntü işləri zamanı binanın həyətindəki iri cəviz ağacları da kəsilərək daşınıb aparılmışdır.

Ulu Öndər Heydər Əliyev 1980-ci ilin may ayında Ordubadda olarkən rayon sakinlərinə yeni konserv zavodunun inşa olunacağı müjdəsini vermişdir. Axı vaxtilə Ordubadda istehsal olunan belə məhsullar Amerikanın Kaliforniya ştatında və Venesiyada keçirilən sərgilərdə mükafata layiq görülmüşdü. Mövcud konserv zavodu isə ildə 40 milyon şərti banka mürəbbə, komport, cem istehsal edirdi. Həmin məhsulların sorağı uzaq Sibirdən, Kamçatkadan, Murmanskdan gəlirdi. Şəhriyar qəsəbəsində inşa olunacaq həmin zavod 6 hektar ərazidə yerləşməliydi və smeta dəyəri 10 milyon manat təşkil edirdi. Zavod binası 80-ci illərin sonunda inşa olunaraq tamamilə istifadəyə yararlı vəziyyətə gətirilmişdi. Bu ünvanda konserv məhsulları istehsalı üçün nələr yox idi? Bu gün həmin əraziyə baş çəkəndə adamı dəhşət bürüyür. Zavod binası tamamilə yerləyeksan edilmişdir. Bu gün həmin ərazidə adi taxta qırıntısı tapa bilməzsən.

Məqaləni yekunlaşdırarkən Ordubad rayonu ilə bağlı bir neçə söz demək istəyirəm. Bu rayon uzun illər ərzində meyvəçilik, tərəvəzçilik və bağçılıqla şöhrət tapmışdır. İndi bir igid istəyirəm ki, son 30 ilə yaxın dövrdə salınmış 40-50 hektarlıq sistemli bir meyvə bağını mənə göstərsin. Ordubadın limonundan, fındığından, əbutalibi, ağ növrəstə, əsgərəbad ərik növlərindən, səlami, güştü, nazlı, şərəlli, tərəlli şaftalı növlərindən, müxtəlif növ cəvizlərdən, alçalardan, gilaslardan, heyvalardan, badamlardan, gilənarlardan, albuxaralardan və sair meyvələrindən sistemli şəkildə yüzlərlə hektar bağ və istixanalar salmaq mümkün idi. Yol kənarlarına son illər Naxçıvandan gətirilib əkilən şam ağaclarını görəndə insan məəttəl qalır. Halbuki yol kənarlarına tut və badam ağacları əkməklə həm baramaçılığı inkişaf etdirmək üçün zəmin hazırlanar, həm də insanlar bu ağacların meyvəsindən bəhrələnərdilər.

*İnanırıq ki, möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 44 günlük tarixi Vətən müharibəsi qələbəsindən sonra Naxçıvanda başladığı islahatlar uğurla yekunlaşacaq, əhalinin güzəranı yaxşılaşacaq. Axı 30 ilə yaxın bir müddətdə muxtar respublikaya rəhbərlik edənlər Ordubad rayonunda 30-40 nəfərin belə işləyə biləcəyi istehsal müəssisəsini nə özləri yaradıblar, nə də ki kimlərinsə yaratmasına imkan veriblər. Əksinə, 2007-ci ilin noyabr ayında bir neçə gün ərzində 168 təndirin, xarrat emalatxanasının, ticarət obyektlərinin, tövlələrin qapılarına vurulan qıfılların hələ də pası açılmayıb...*

**Abbas SEYİD**
***Azərbaycan Respublikasının Əməkdar jurnalisti***

Gəlin açıq danışaq

# “Yağlı çörəyin” qaranlıq taleyi
## və ya borclar geri qaytarılacaqmı?

(replika)



*Bir neçə ay öncə muxtar respublikada aparılan yoxlamalar zamanı hər bir ailənin “borc dəftəri” kimi bildiyi qeyd kitabçası yağlı çörək olub yoxa çıxdı. Əslində, elə həmin dəftəri “yağlı çörək” adlandırmaq daha doğru olardı, yağını insanların qazandıqları “çörək”dən alan “çörək”. Bəli, söhbət 2020-ci ildən rəsmi şəkildə icbari tibbi sığortanın tətbiq olunmasına rəğmən “Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi” publik hüquqi şəxsə üz tutan ailələrdən “dövlət rüsumu” adı altında vəsaitlərin yığılmasından, həmin vəsaitlərin qeydiyyatının aparıldığı “xüsusi dəftər”dən gedir...*




“Borclu borclunun sağlığını istər”.
Karikaturanın müəllifi Araz Xudiyev

Uşağın dünyaya gəlməsi mənəvi sevinclə yanaşı, həm də maddi sıxıntılar gətirərdi Naxçıvanda yaşayan, xüsusilə də təminatı az olan ailələr üçün. Qadının hamiləlik müayinəsi üçün ilk dəfə xəstəxanaya müraciət etdiyi andan bu sıxıntılar başlayar, ta ki uşaq dünyaya gəlib, peyvəndi vurulub bitənəcən. Uşaq doğulduğu gün isə maddi sıxıntının kulminasiya nöqtəsi yaşanardı. Belə ki, hədsiz sevinc içərisində xəstəxanaya üz tutan atanın üzündəki təbəssüm tibbi heyətin “şirinlik almaq” xatirinə canfəşanlıq etməsini, dərdən-qabıqdan çıxmasını görəndə acı ikrahla əvəz olunardı. Hətta iş o yerə gəlib çatmışdı ki, hər bir ailə bunu olmazsa-olmaz sayır, daha doğrusu, yazılmamış qanun hesab edirdi. “Şirinlik”siz dünyaya gələn uşaqlara qarşı biganə, etinasız münasibətin göstərildiyini bilən, eşidən ailəni, tibb işçilərindən fərqli olaraq tutduğu işə görə haradasa başa düşmək, qınamamaq olar. Axı övlad ən şirin, ən əziz nemətdir, onun başından bir tükün əksilməyi belə valideyn üçün ən dözülməz haldır. Xülasə, bu barədə çox danışıb, çox yazmaq olar...

Hər kəsi düşündürən məlum məsələni araşdırmaq üçün üz tutduğumuz ilk ünvan Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi oldu. Burada bizi agentliyin İcbari tibbi sığorta işinin təşkili və qeydiyyat şöbəsinin müdiri Elnur İbrahimov qarşılayaraq suallarımızı qısa şəkildə cavablandırdı. Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası ərazisində 2020-ci ildən etibarən icbari tibbi sığorta tətbiq olunur. “Tibbi Sığorta üzrə Azərbaycan Respublikasının Qanunu”na əsasən respublika vətəndaşlarının hamısı sığortalıdır və heç bir əlavə xərc ödəmədən nəzərdə tutulan xidmətlərdən istifadə edə bilərlər. Təsdiq olunan xidmətlər zərfində hamilə qadınlar üçün zəruri olan bütün müayinə və müalicələr nəzərdə tutulub. Başqa sözlə, qadının hamiləliyinin müəyyən edildiyi ilkin müayinədən uşaq dünyaya gəlib xəstəxanadan evə buraxılanadək bütün tibbi prosedurlar ödənişsizdir və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən qarşılanır. Naxçıvan şəhərində hamilə qadınların ilkin səhiyyə xidmətini Doğum Mərkəzi həyata keçirdiyindən göndəriş tələb olunmur, digər rayon sakinləri üçün isə xidmətlərdən yararlanmaq üçün göndəriş verilməlidir. Xidmətlər zərfinin qərar hissəsində yalnız təcili yardım halında hamilə qadının göndəriş tələb edilmədən xəstəxanadakı xidmətlərlə təmin olunması nəzərdə tutulub.

Araşdırmalarımızı Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində davam etdirdik. Xəstəxananın tibbi heyəti kim olduğumuzu bilib gəlişimizin məqsədini öyrənən kimi, adi vətəndaşlardan fərqli olaraq bizə dərhal reaksiya verdilər və mərkəzin baş həkimi Kəmalə Qurbanova ilə görüşməyə icazə verildi. Kəmalə həkim suallarımıza cavab olaraq qeyd etdi ki, 2021-ci ilin dekabr ayınadək Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən tibbi sığorta ilə çalışan personala aylıq 25 faiz əlavə vəsaitlər ödənilib, 2022-ci ilin yanvarından isə publik hüquqi şəxs statusuna uyğun büdcəyə toplanan vəsaitdən aid tibbi əməkdaşların əməkhaqlarına 30 faiz əlavələr edilib. Söhbət zamanı o da məlum oldu ki, sən demə, muxtar respublikada gedən məlum yoxlamalardan bərk təşvişə düşən xəstəxana rəhbərliyi “borc dəftəri”ni gedər-gəlməz məzuniyyətə yola salıb. Artıq ötən il noyabr ayının 24-dən mərkəzə müraciət edən hamilə qadınlar icbari tibbi sığorta zərfində nəzərdə tutulan bütün xidmətlərlə ödənişsiz şəkildə təmin olunurlar...

*Kəmalə həkimin otağından ayrıldıqdan sonra Doğum Mərkəzinin birinci mərtəbəsində hey müşahidə etdik, əvvəllər “cibimizə girən” “borc dəftəri”ni, daha doğrusu, yağını insanların qazandıqları çörəkdən alan “yağlı çörəyi” görə bilmədik. Araşdırmalar zamanı çox məqama aydınlıq gətirsək də, “yağlı çörəyin” taleyi qaranlıq, hər kəsi narahat edən “alınan borclar geri qaytarılacaqmı?” sualı cavabsız qaldı. “Borclu borclunun sağlığını istər”, – deyiblər. Borclu olmasaq da, bizə borcu olanın sağlığını istəyirik. Hətta “borcumuzu” ödəməyəndə sağlığımızı istəməyənlərin də...*

**Nail ƏSGƏROV**

# “Elmi əsərlər” jurnalının yeni sayı çapdan çıxıb




*AMEA Naxçıvan Bölməsi tərəfindən nəşr olunan “Elmi əsərlər” jurnalının 2022-ci il üzrə sonuncu nömrəsi çapdan çıxıb. Jurnalın yeni nömrəsi təbiət və texniki elmlər seriyasına daxil olan elmi məqalələri əhatə edir.*

“Dağlıq ərazilərdə hündür qülləli konstruksiya və qurğulara küləklərin təzyiqi”, “Dolomit filizinin perxlorat turşusu ilə parçalanma şəraitinin öyrənilməsi”, “Dracocephalum thymiflorum – Kəklikotuçiçək ilanbaş (Lamiaceae) Azərbaycan Respublikası florası üçün yenidir”, “Naxçıvan Muxtar Respublikası landşaftının ekoloji problemi” kimi, ümumilikdə, 50-yə yaxın elmi məqalənin əksini tapdığı jurnalda kimya, biologiya, fizika, astronomiya və coğrafiya elm sahələri üzrə aparılan araşdırmaların nəticələri yer alıb.

Qeyd edək ki, 2005-ci ildə təsis edilən jurnal ildə 4 dəfə olmaqla nəşr olunur. 2022-ci ildə ikisi xüsusi nömrə olmaqla, ümumilikdə, 6 sayı çap edilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 13 fevral 2023-cü il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq əmlakın adı | Ünvanı | İstismara verildiyi il | Əmlakın ilkin satış qiyməti (manatla) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|
| 1. | Sənaye malları mağazası | Şahbuz rayonu, Kolanı kəndi | 2009 | 9500.0 | 950.0 |
| 2. | Ət satışı mağazası | Şahbuz rayonu, Kolanı kəndi | 2009 | 6800.0 | 680.0 |
| 3. | Dərzi sexi | Şahbuz rayonu, Kolanı kəndi | 2009 | 5600.0 | 560.0 |
| 4. | Məişət otağı | Şahbuz rayonu, Kolanı kəndi | 2009 | 5600.0 | 560.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 10 fevral 2023-cü il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:
- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 13 fevral 2023-cü il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

*Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.*

***Əlaqə telefonu: 545-01-38***

## Təhlükəsizlik qaydalarına əməl edək

Soyuq və yağıntılı hava şəraiti qaz və elektrik qızdırıcı cihazlarından istifadənin xeyli artmasına səbəb olur. Bu zaman elektrik şəbəkəsinin həddindən artıq yüklənməsi, habelə nasaz, qeyri-standart və ya kustar üsulla hazırlanan qaz və elektrik qızdırıcı cihazlarından istifadə, ehtiyatsızlıq yanğınla nəticələnə, həmçinin dəm qazı təhlükəsi yarada bilər. Odur ki, nasaz, qeyri-standart və ya kustar üsulla hazırlanan qızdırıcı cihazlardan istifadə edilməməli, elektrik şəbəkəsi həddindən artıq yüklənməməli, işlək vəziyyətdə olan qızdırıcı cihazlar nəzarətsiz qoyulmamalı, xüsusilə bunlar uşaqlara həvalə edilməməli, qızdırıcı cihazların bilavasitə yaxınlığında yanar materiallar və asan alışan mayelər saxlamamalı, cihazlardan zavod istehsalçılarının təlimatlarına (tövsiyələrinə) uyğun istifadə edilməlidir.

Bununla yanaşı, səfərə çıxan insanlara rəsmi qurumların hava şəraiti ilə bağlı proqnozlarına diqqət yetirməyi, şaxtalı və çovğunlu havada mümkün qədər yaşayış məntəqəsini tərk etməməyi, belə bir zərurət yarandıqda hərəkət istiqaməti barədə yaxınlarını əvvəlcədən məlumatlandırmağı, hərəkət avtomobillə olduqda avtomobilin texniki göstəricilərinin günə uyğunluğunu və kifayət qədər yanacaq ehtiyatını təmin etməyi, nabələd məkanlara yaxınlaşmamağı və belə bir hərəkət marşrutu seçməməyi, olduqları yerlərdə xəbərdaredici və qadağanedici nişanların tələblərinə əməl etməyi, qar uçqunu ehtimalı olan yerlərdən, o cümlədən dik yamaclardan kənar gəzməyi, günün qaranlıq vaxtına qalmadan yaşayış məntəqəsinə geri dönməyi tövsiyə edirik.

Həmçinin piyadalar buz bağlamış yollarda hərəkət edərkən:
- ayaqqabını sürüşməyə qarşı hazırlayın – ayaqqabının dabanına metal basma, quru altlığa isə yapışqan plastır, yaxud izolyasiya lenti yapışdırın. Altlığı qum və ya sumbata kağızı ilə sürtün;
- ehtiyatla, tələsmədən, ayaqqabını yerə bütövlükdə basaraq addımlayın. Bu zaman ayaqlar azca zəifləddilmiş, əllər boş olmalıdır;
- yaşlı insanların rezin ucluqlu əsadan, yaxud ucları batıcı olan xüsusi çubuqdan istifadə etməsi tövsiyə olunur;
- sürüşsəniz, zərbənin gücünü azaltmaq üçün oturun;
- yıxılanda özünüzü toparlayın, qollarınızı bükük diyirlənərək zədə almaqdan qorunun.

Unutmayın: Qaydalara biganəlik həyatımıza təhlükədir!

Təhlükə zamanı ***112***-yə zəng edin!

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Baxşəliyev Elçin Həmid oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Səfərov Azər Elman oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Nəcəfova Nəzakət Hidayət qızına məxsus Naxçıvan şəhəri, Mirzə Ələkbər Sabir küçəsi, ev 13 ünvanında yerləşən fərdi yaşayış evinin 13.08.2007-ci il tarixli 2456 inventar nömrəli texniki pasportu və MH-0018914 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Seyidov İlqar Çingiz oğluna məxsus IJ Planeta 5 Motosikl markalı nəqliyyat vasitəsinin 71-57AZB dövlət qeydiyyat nişanı itdiyindən etibarsız sayılır.

***

İsmayılova Aygül Firuddin qızının adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Sənaye Kompleksi MMC-yə verilmiş AA-006014 nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 35